Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 9-11
(7058-7060) Bazar ertəsi, 18 fevral 2013-cü il Qəzet ayda 4 dəfə çıxır Qiymәti 40 qәpik

Xüsusi buraxılış

# İlham ƏLİYEV: Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycanın vətəndaşı, onun rifahı dayanır



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: «Bütövlükdə ötən il ölkə iqtisadiyyatı üçün çox uğurlu il olmuşdur... Bizim düşünülmüş iqtisadi siyasətimiz artıq öz gözəl nəticələrini verməkdədir və dinamika müsbətdir, inkişaf çox sevindiricidir».***

***Əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə respublikanın ayrılmaz tərkib hissəsi olan Qəbələdə də müsbət dinamika davam etmişdir. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat məruzəsində məhz bu məsələdən geniş söhbət açılır.***

***Qəzetimizin xüsusi buraxılışı olan bu sayında məruzəni dərc edirik.***




## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

**Hörmətli qonaqlar!**

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədirliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlət başçısı qeyd etmişdir ki, həyata keçirilən iqtisadi siyasət nəticəsində bütövlükdə ötən il Azərbaycan iqtisadiyyatı üçün uğurlu olub. Ötən il ümumi daxili məhsul 2,2 faiz, qeyri-neft sənayesi 8 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 6 faiz, əhalinin pul gəlirləri 13,8 faiz artıb, infilyasiya 1,1 faiz səviyyəsində olub.

"Bizim düşünülmüş iqtisadi siyasətimiz artıq öz gözəl nəticələrini verməkdədir və dinamika müsbətdir"-deyən cənab İlham Əliyev ötən il sosial proqramların da uğurla icra olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, sovet dövründən dondurulmuş əmanətlərin vətəndaşlara kompensasiya şəklində ödənilməsi proqramının böyük hissəsi icra olunub. İnvestisiya xərcləri 22 milyard dollardan çox olub. Əlamətdar haldır ki, ümumi investisiyalar portfelində daxili investisiyalar üstünlük təşkil edir.

Dövlət başçısı bildirdi ki, bu ilin büdcəsi rekord səviyyəyə--20 milyard manata çatıb. Hazırda ümumi valyuta ehtiyatlarımız 46 milyard dollar həcmindədir.

Ötən il sosial infrastrukturun yaradılması ilə bağlı görülən işlərdən danışan cənab İlham Əliyev yüzlərlə məktəb, xəstəxana, idman qurğusu və digər sosial obyektlərin tikildiyini və əsaslı təmir olunduğunu diqqətə çatdırıb. Bildirib ki, bu sahədə ən böyük vəsait qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Dövlət Neft Fondundan 2012-ci ildə bu məqsədlə 300 milyon manat vəsait ayrılıb.

Ölkə başçısı regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən proqramların uğurlu icrası nəticəsində ötən il 117 min və bütövlükdə ilk proqramın qəbul olunduğu vaxtdan bəri 1 milyon 200 min yeni iş yerinin yaradıldığını diqqətə çatdırıb. Ötən il işsizliyin faizi 5,2 faiz, yoxsulluğun səviyyəsi isə 6 faizə düşüb.

Cənab İlham Əliyev yaşayış məntəqələrində sosial infrastrukturun yaxşılaşdırılması, ölkədə sənayeləşmənin genişləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş tədbirlərin göründüyünü vurğulamışdır. Həmçinin gələn ay Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə çıxarılacağını qeyd edib.

(Ardı 2-ci səhifədə).



*Ümummilli liderimiz Heydər Əliyevin yaxın silahdaşı, respublikamızın nüfuzlu ağsaqqalı, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, qəbələlilərin sevimlisi və millət vəkilimiz Fəttah Heydərov rayonumuzda sosial-iqtisadi sahədə həyata keçirilən bütün layihələrdə yaxından iştirak etmiş, Qəbələnin çiçəklənməsi istiqamətində yorulmaz əmək sərf etmişdir. O, həmişə olduğu kimi 2012-ci ildə də seçicilərinin müraciətlərinə diqqət və qayğı ilə yanaşmış, bütün tarixi və əlamətdar günlərdə onlarla birlikdə olmuşdur.*